

**XEYRƏDDİN QOCA,**
YAP Siyasi Şurasının üzvü

## ÇƏTİN MÜBARİZƏ YOLU

Əziz, hörmətli Yeni Azərbaycançılar! Sizə partiyamızın sədri, cənab Heydər Əliyevin mübarizələrlə dolu çətin, keşməkeşli həyat yolunun mənə məlum olan dövrlərindən söz açmaq istəyirəm. Bəlkə də çoxlarınız bu möhtəşəm mübarizə yolu ilə tanışsınız. Kimlərsə düşünə bilərlər ki, keçmişə qayıtmağa ehtiyac yoxdur. Məhz indi keçmişə nəzər salmağın bəziləri üçün ibrət dərsi olacağına şübhə etmirəm.

Bilirsiniz ki, Heydər Əliyev Moskvaya SSRİ rəhbərliyinə aparılmamışdan əvvəl 14 il Azərbaycana rəhbərlik etmişdir. 1969-82-ci illərdə Azərbaycan KP MK-nın birinci katibi işləyərkən, ölkəmizdə apardığı cahanşümul quruculuq işləri artıq əbədi tarixə köçmüşdür. Qısaca demək istəyirəm ki, həmin dövrdə 250 yeni müəssisə, fabrik, zavod tikilib istifadəyə verilmişdir. Bakıda mikrorayonlar salınmışdır. Şərq ölkələrində ilk dəfə Azərbaycanın paytaxtında metronun inşasına başlanmış və demək olar ki, bütün şəhəri əhatə edən stansiyalar tikilib istifadəyə verilmişdir. Respublikamızın rayonlarında ucu-bucağı görünməyən üzüm bağları salınmışdır, ayrı-ayrı bölgələrdə su anbarları, dəryaçalar tikilmişdir, suvarma kanalları çəkilmişdir. Xalqımızın rifah halı daim yüksələn xətt üzrə inkişaf etmişdir. İndi Bakıya gözəllik verən ən möhtəşəm binalar məhz 70-ci illərdə - Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə ucaldılmışdır. Prezident Aparatı, Milli Məclisin binası, Respublika sarayı, Gülüstan sarayı, Qonaq evi... Onların sayı çoxdur.

1982-ci ildə hələ 1976-cı ildən Sov. İKP MK Siyasi Bürosu üzvülüyünə namizəd, sonra isə Siyasi Büronun üzvü olan Heydər Əliyevi SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkdilər. Beləliklə, cənab Heydər Əliyev SSRİ rəhbərliyində işləyən ilk türk olğu oldu. Görkəmli partiya və dövlət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı fəxri adını aldı, Naxçıvanda, doğma Vətənində möhtəşəm büstü qoyuldu. Xalqımız öz böyük oğlu ilə daim fəxr edərkən, Heydər Əliyevi nələr gözlədiyi heç kimə məlum deyildi. O zaman həm ermənilər, həm də onlardan geri qalmayan bəzi azərbaycanlılar Moskvaya, Kremlə Heydər Əliyev haqqında böhtan və iftira dolu məktublar göndərirdilər. Heydər Əliyevin Siyasi Büroda olmasını çoxlarının gözü götürmürdü. Ermənilər yaxşı bilirdilər, nə qədər ki, Azərbaycanın böyük oğlu Siyasi Bürodadır, onlar

torpaq iddiaları ilə əlaqədar istək və arzularına çata bilməzlər. Odur ki, nə vəchlə olur-olsun, onu vəzifəsindən uzaqlaşdırmaq, ləkələmək istəyirdilər.

Sonralar Heydər Əliyevlə Naxçıvanda görüşərkən, o mənə İqor Muradyan adlı bir erməninin məktubunu verdi. Həmin məktubu indi də saxlayıram. Muradyan məktubunda Heydər Əliyevə son dərəcə hörmətsizcəsinə müraciət edir və hədə-qorxu gələrək yazırdı ki, Əliyev, biz sizi terror yolu ilə öldürə bilərik. Bundan əvvəl Azərbaycanın, Şərqin böyük, adlı-sanlı insanlarını necə aradan götürmüşüksə, sizi də eləcə məhv edərik. Lakin sizi öldürmürük, saxlayırıq ki, məhkəmə kürsüsündə oturasınız...

Nəhayət, Heydər Əliyev Moskvada xəstələndi. Mixail Qorbaçov - Azərbaycan xalqının qəddar düşməni, ermənilərin dostu olan bu cinayətkar Heydər Əliyevi vəzifədən uzaqlaşdırdı. Beləliklə, Azərbaycan KP MK-nın birinci katibi işləyən Əbdürrəhman Vəzirovun başçılığı altında Azərbaycanın və Moskvanın kommunist mətbuatında Heydər Əliyevə böhtan və iftiralar atılmağa başlandı.

Azərbaycanlı Əfəndiyev soyadlı bir həkimin imzası ilə "Pravda" qəzetində biabırçı bir məqalə dərc olunmuşdu. Sonradan məlum olmuşdur ki, Əfəndiyev Heydər Əliyev haqqında yox, Azərbaycanda səhiyyənin vəziyyəti barədə məqalə yazıbmış. "Pravda" qəzeti isə Heydər Əliyevi vurmaq üçün onun soyadından istifadə etmişdir. O zaman Azərbaycanın kommunist mətbuatı da Heydər Əliyevi ləkələmək üçün indiki bəzi qəzetlər kimi yarışa girmişdilər...

1989-cu ildə görünməmiş bir hadisə baş verdi - Sovet İttifaqı Mərkəzi Komitənin 110 üzvü və üzvülüyə namizəd guya öz arzusu ilə Mərkəzi Komitədən uzaqlaşdırıldı. Heydər Əliyev MK-nın plenumunda çıxış edərək ona qarşı böhtançılıq kompaniyasının təşkil olunmasını başdan-ayağa haqsızlıq hesab etdiyini, atılan böhtanların həqiqətə qətiyyən uyğunlaşmadınğını bəyan etdi. Mənim eşitdiyimə, bildiyimə görə 1990-cı il yanvarın 19-da axşam saatlarında Qorbaçov Heydər Əliyevə zəng vuraraq Bakıya getməsini, nüfuzundan istifadə edərək xalqı sakitləşdirməsini xahiş etmişdir. Artıq gec idi, o vaxt Bakıya heç təyyarə reysi də yox idi. Heydər Əliyev necə deyərlər, iki daşın arasında Bakıya necə gələ bilərdi? Bir də axı, Qorbaçov Bakıda qırğın törədəcəyi barədə Heydər Əliyevə məlumat verməmişdi... Belə bir məlumat olsaydı, Heydər Əliyev heç olmasa, hər hansı yolla xalqa məlumat verərdi. Hərçənd Azərbaycan rəhbərliyində onu heç kim eşitmək istəmirdi. Bəlkə belə bir məlumat olsaydı belə, Heydər Əliyevi eşitməzdilər.

Mən belə düşünürəm ki, Qorbaçov heç də Heydər Əliyevi xalqı sakitləşdirmək üçün yox, mübarizə ruhu ilə ayağa qalxan xalqa rəhbərlik edən şəxs kimi onu kütlənin başında yaxalamaq, (guya xalqı o ayağa qaldırmışdı) ya da məhv edəcəkləri insanlarla birlikdə onu məhv etmək məqsədi güdürdü.

Bəli, 1990-cı il yanvarın 20-də Azərbaycanda qanlı cinayət baş verdi, Bakı şəhərinə Sovet ordusunun, SSRİ DİN-nin böyük kontingenti yeridilərək dinc əhalini qırdılar. Heydər Əliyev buna dözmədi, heç nədən, heç kimdən qorxmadan Azərbaycan Respublikasının Moskvadakı daimi nümayəndəliyinə gələrək Mətbuat Konfransı keçirdi, müxbirlərin suallarına cavab verdi. Sovet rəhbərliyinin bu hərəkətini antihumanist, konstitusiyaya zidd hərəkət olduğunu bildirdi və Qorbaçovun hərəkətini pislədi. Əliyev Azərbaycan xalqına başsağlığı teleqramı vurdu.



Həmin teleqram belə yazılmışdı:

"Azərbaycan KP MK-ya,

Ali Sovetə,

Nazirlər Sovetinə

Azərbaycan xalqına

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsini ilə əlaqədar xalqımızın başına gətirilən faciədən, əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən bu düşünülmüş aksiyanı pisləyir, onu antihumanist, antidemokratik, qanuna zidd hesab edirəm. Bu ağır gündə sizi həmrəyliyə və birliyə çağırıram.

*Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio və televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.*

***Heydər Əliyev***

*Moskva, 21 yanvar 1990-cı il."*

Qeyd edək ki, bu teleqramı ilk dəfə mən baş redaktoru olduğum "Dan ulduzu" qəzetində dərc etdim.

Lakin Azərbaycanın o vaxtkı rəhbərliyi bu teleqramı xalqdan gizlətdi. Moskvada Azərbaycan nümayəndəliyində çıxışından sonra Heydər Əliyevə daha güclü hücumlar başlandı. Düz 10 gün sonra "Pravda" qəzetində ona qarşı böhtan, iftira, cəfəngiyyat və hər cür uydurmalarla dolu "Əliyevçilik, yaxud "xoş əyyamlar"ın xiffəti" adlı məqalə çap olundu. Heydər Əliyev qeyd edir ki, "bu vaxt mən başa düşdüm ki, bir halda ki, mübarizə lazımdır, deməli mübarizə aparmalıyam..."

Yeri gəlmişkən qeyd edək ki, Heydər Əliyevi işdən uzaqlaşdırandan sonra Moskvadakı Beynəlxalq Münasibətlər İnstitutunu bitirən, həmin institutun aspiranturasını qurtarıb namizədlik dissertasiyasını müdafiə edən və orada dərs deyən oğlu İlhamı da, Şərqşünaslıq İnstitutunu bitirən, ərəbşünas, elmlər namizədi, həmin institutunda işləyən qızı Sevil xanımı da işdən uzaqlaşdırdılar.

Moskvada böyük sıxıntı çəkən təqaüdçü Heydər Əliyevin Vətənə dönməkdən başqa əlacı qalmamışdı. Nəhayət, 1990-cı il iyulun 20-də o, Bakıya gəldi. 1990-cı il mayın 30-da "Azərnəşr"in direktoru Əjdər Xanbabayev qətlə yetirildi. Bu əhvalatdan bir qədər sonra Heydər Əliyev demişdir: "Onlar Xanbabayevi öldürdülər ki, məni qorxutsunlar, Azərbaycana gəlməyimə mane olsunlar". Hey-

dər Əliyevi qarşılayanların içərisində mən də var idim. Onu qarşılayarkən aeroportda bir dəstə üzü tüklü adamları gördüm, əllərində belə yazılar var idi: "Heydər Əliyev, siz Bakıya qayıtmayın, biz sizin gəlməyinizi istəmirik" və s. və ilaxir təhqiramiz ifadələr. Yadımdadır, bir qadın onalara yaxınlaşıb dedi ki, ayıb deyil, utanmırsınız, Heydər Əliyev indi deputat otağından (o zaman belə adlanırdı) çıxıb gələcək, siz siçan kimi hərəniz bir deşiyə girəcəksiniz. Mən onların birindən "sizin burada nə işiniz var?" - deyə soruşdum. Üstümə qışqırdılar, "göndəriblər, gəlmişik də..." - deyə cavab verdilər. Kim göndərmişdi onları? Ayaz Mütəllibov, onun əlaltısı Seyfəl deyilən birisi!

Bütün manеələrə baxmayaraq, Heydər Əliyev Bakıya - qardaşının evinə gəldi, lakin həmin günün gecəsi Ayaz Mütəllibovun adamları tərəfindən xəbərdarlıq olundu ki, Bakıda yaşaya bilməz, ya gərək Naxçıvana getsin, ya Moskvaya qayıtsın. Onu sui-qəsdlə hədələyirdilər. Heydər Əliyev həmin gecə Naxçıvana getdi, səhəri gün mən də ora dəvət olundum. Minlərlə Naxçıvan sakini Heydər Əliyevin ziyarətinə gəlirdi. Xalq məhəbbəti... Mən bu sözlərin dərin mənasını, ölçüyəgəlməz qiymətini Heydər Əliyev Naxçıvana gələn gün 1990-cı il iyul ayının 22-də və sonrakı günlərdə gördüm.

Gəlişini ailə üzvlərindən başqa heç kim bilmirdi, 6 ay əvvəl həyatla vidalaşmış bacısının evinə təyyarə vağzalından "Jiquli" maşını ilə getdi. Xəbərsiz-ətərsiz gələn qonağın səsi-sorağı bir neçə dəqiqədə bütün Naxçıvana yayılmışdı. Yerli camaat, qohum-qonşular gəldilər, qucaqlaşdılar, öpüşdülər. Hamı əziz qonağı bağrına basır, ondan ayrılmaq istəmirdi. Adamlar sevinc qarışıq göz yaşlarını gizlətməyə çalışsalar da, bu mümkün olmurdu.

Görüşə gələnlərin nəzəri Naxçıvan Rəssamlar Birliyinin üzvü Mircəlil Seyidovun Heydər Əliyevin gəllişi ilə əlaqədar yağlı boya ilə yaratdığı böyük portretə - "Vətən torpağında" adlı gözəl sənət əsərinə dikilirdi. Əsərdə rəssam Heydər Əliyevi taxıl zəmisində, uşaqlarla birlikdə təsvir etmişdi. Özünəməxsus təbəssümü olan Heydər Əliyev Vətən torpağında necə də xoşbəxtdir!

Bəli, xalq Heydər Əliyevi alqışlayırdı. Bu alqışlar Vətən oğluna sonsuz məhəbbətin rəmzi idi. Görüşlərin birində cənab Heydər Əliyevdən soruşdum:

- Bəlkə camaata tapşırıblar ki, sizi alqışlasınlar?

O, gülümsəyərək suala sualla cavab verdi:

- Nəyə işarə edirsiniz?

- "Literaturnaya qazeta"nın 1988-ci il 21 sentyabr tarixli nömrəsində dərc olunmuş "Gurultulu alqışlar" oçerkinə.

- Sizi başa düşdüm. Xahiş edirəm, gördüklərinizi peşə dostlarınıza, daha doğrusu vaxtilə məni ləkələməyə çalışanlara danışın. Qoyun gəlib hər şeyi öz gözləri ilə görsünlər və düşünsünlər.

Heydər Əliyev bu sözləri söyləyərkən, onun nə qədər incik olduğunu hiss etmək çətin deyildi. Çünki o, qeyd etdiyim kimi, vəzifəsindən çıxandan sonra mətbuatda tez-tez haqsız hücumlara məruz qalmışdı. Bəzi qələm sahiblərinin köhnə peşəsidir, vəzifədə olanı "dil boğaza qoymadan" tərifləyirlər, vəzifədən çıxan kimi "kəsib-doğrayırlar". Həqiqət meydana çıxanda belələrinin yazıları nə qədər mənasız, özləri nə qədər miskin görünürlər! Bir neçə sifəti olan belə adamlar həm dövlət vəzifələrində, həm də televiziya və mətbuat orqanlarında indi də çalışırlar. Belələri, sadəcə olaraq, məni heyrətə gətirirlər...



Bir faktı da qeyd etmək istəyirəm. Görkəmli dövlət xadimi Heydər Əliyevin Bakıya və Naxçıvana gəlişini Azərbaycanın mətbuatı, radio və televiziyası xalqa bildirməmiş, yalnız "Komsomolskaya Pravda" (24 iyul 1990-cı il) "Aliev vernulsya?" başlığı altında dərc etdiyi yazıda bu xəbəri oxuculara çatdırmışdır.

"Aliev vernulsya?" başlığındakı suala cavab olaraq o vaxt mətbuatda yazmışdım: "Da vernulsya! İ navseqda".

Cənab Heydər Əliyev ikinci dəfə siyasi hakimiyyətə gələndən sonra mübarizələrlə dolu çətin və şərəfli bir həyat yaşayır. Bu mübarizələr və görülən böyük işlər bizim gözlərimiz qarşısındadır. Yeni Azərbaycanı qurub-yaradan, əbədi dövlətçiliyimizin təməlini qoyan bu insanı hər tərəfə işıq saçan bir günəşə bənzətmək olar. Bu günəşi görməmək və ya görməməzliyə vurmağın heç bir mənası və əhəmiyyəti yoxdur. Səməd Vurğunun dediyi kimi: "Günəşdən gizlənən yarasalardır".

Möhtərəm prezidentimizin şərəfli yubileyi yaxınlaşır. Mən bu münasibətlə onu ürəkdən təbrik edirəm. Ona cansağlığı, uzun ömür, xoşbəxtlik arzulayıram!